**UOT 94 (479.24)**

# AZƏRBAYCAN RESPUBLİKASININ İNKİŞAFI (2003-2011-ci illərdə)

**İ.X.ZEYNALOV**
***Bakı Dövlət Universiteti***
***Zeynalov_Ibrahim@hotmail.com***

*Elmi məqalə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin rəhbərliyi altında Respublikanın sosial-iqtisadi və siyasi-mədəni həyatında əldə edilən nailiyyətlərə həsr edilmişdir. Məqalədə aşağıdakı problemlərin öyrənilməsinə xüsusi diqqət yetirilir:*

*- daxili və xarici siyasət sahəsində dövlət proqramının həyata keçirilməsinin hazırki vəziyyəti və uğurları;*

*- ölkəmizin regionlarda həyata keçirilən transmilli layihələrdə iştirakı məsələlərinin hərtərəfli təhlili;*

*- sənayenin neft və qeyri-neft sahələrinin paralel şəkildə inkişafının respublikanın sosial-iqtisadi və mədəni həyatına təsiri məsələləri;*

*- respublika əhalisinin bütün təbəqələrinin sosial və maddi həyat səviyyəsinin yüksəlməsi, yoxsulluğun minimum həddə endirilməsi və s;*

*- qlobal maliyyə-iqtisadi böhranın davam etməsinə baxmayaraq, Azərbaycanda sosial-iqtisadi inkişaf davam etmişdir. Bu respublikada iqtisadi və maliyyə siyasətinin düzgün aparıldığını, neft gəlirlərindən səmərəli istifadə olunduğunu göstərir.*

**Açar sözlər:** sivilizasiya, sosial-iqtisadi, model, maliyyə-iqtisadi böhran, qeyri-neft sektoru, islahat, sosial vəziyyət, investisiya, ekologiya, eksport, Avropa ittifaqı

Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat ağır və çətin vəzifədir. Azərbaycan Respublikası artıq 20 ildir ki, əldə etdiyi bu müstəqilliyin qorunub saxlanılması və möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət qurulması, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi, Dağlıq Qarabağ probleminin milli maraqlarına uyğun həlli, əhalinin ərzaq təhlükəsizliyinin və maddi rifahının, dövlətin iqtisadi və enerji təhlükəsizliyinin təmin edilməsi kimi taleyüklü problemləri şərəf və uğurla həyata keçirir (1).

Müstəqillik illərində Respublikanın əldə etdiyi nailiyyətlər isə onun təkcə mövcud olduğu regionda yox, həm də dünyada lider mövqelərdən birinin sahibi kimi çıxış etməsini təmin etmişdir. Ulu öndər Heydər Əliyev hələ müstəqilliyin 10 illiyi münasibətilə çıxışında bildirmişdi ki, Azərbaycanın

sosial-iqtisadi inkişafında yeni mərhələnin təməli qoyulmuş və yüksək iqtisadi artım üçün əsaslı zəmin yaradılmışdır (2).

Azərbaycanda köklü islahatlar aparılmış, sistemli dəyişikliklər həyata keçirilmiş, iqtisadi münasibətlərin yeni əsaslar üzərində qurulması istiqamətində səmərəli işlər görülmüş və görülməkdədir. 2011-ci ilin sosial-iqtisadi və mədəni quruculuq sahələrində görülən işlərin yekunları bir daha göstərir ki, Azərbaycanda neft və qeyri-neft sektoru, kənd təsərrüfatı, onun müxtəlif sahələri dinamik şəkildə inkişaf edir, Ümumi Daxili Məhsulda qeyri-neft sektorunun payı son bir il ərzində 2%, onun həcmi isə son 20 ildə 88 dəfə artmışdır. Prioritet sahələrdən birinə çevrilmiş nəqliyyat sektorunda isə müstəqillik dövründə nəqliyyat xidmətləri 3,7 dəfə, yük dövriyyəsi isə 2,3 dəfə çoxalmışdır (13).

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2012-ci ilin 16 mart tarixli yığıncağında xüsusi vurğulanmışdır ki, 2011-ci ilin sonuna qədər nəzərdə tutulmuş bütün planlar yerinə yetirilməlidir. 2011-ci ilin sosial-iqtisadi inkişafın mədəni quruculuq və digər sahələrinin yekunları göstərir ki, bu il ölkəmizin inkişafı üçün çox əhəmiyyətli il olmuşdur. Ümumiyyətlə, 2009, 2010 və 2011-ci illər dünya tarixində maliyyə və iqtisadi böhran illəri kimi qalsa da, bu böhran Azərbaycanın sosial-iqtisadi və mədəni həyatına o qədər də təsir etməmişdir. Maliyyə və iqtisadi böhran illəri Azərbaycan üçün də sınaq olmuşdur və respublikamız bu sınaqdan müvəffəqiyyətlə çıxmış, bütün sahələrdə dinamik inkişaf davam etmişdir (13).

Araşdırmalar və təhlillər göstərir ki, Azərbaycanda aparılan islahatlar və düşünülmüş iqtisadi və sosial siyasət nəticəsində 2010-cu il və 2011-ci illərdə respublika iqtisadiyatının bütün sahələri sürətlə inkişaf etmiş, əhalinin mədəni və sosial həyatı, maddi rifahı yaxşılaşmaqda davam etmişdir. Bunu 2011-ci ilin son aylarında büdcədən maliyyələşdirilən işçilərin, təqaüdçülərin, pensiya alanların, xüsusilə həkimlərin, hərbçilərin, polis işçilərinin, təhsil işçilərinin (ali təhsil istisna olmaqla), elm sahəsində çalışanların əmək haqlarının artırılması və digər güzəştlərin edilməsi parlaq şəkildə göstərir.

2010-cu ilin sosial-iqtisadi yekunları ilə müqayisədə 2011-ci ildə iqtisadiyyatımız 5% inkişaf etmiş, mikroiqtisadi vəziyyət də sabit olaraq qalmışdır.

Azərbaycan iqtisadiyyatı qlobal iqtisadi böhranın davam etdiyi şəraitdə belə, 2011-ci ildə də dayanıqlığını qoruyub saxlamış, müəyyən artıma nail olmuşdur. Burada ən önəmli cəhət iqtisadiyyatın daha da şaxələnməsi və qeyri-neft sektorunda yüksək – 9,4 faiz artımın əldə edilməsidir (13).

2011-ci ildə Ümumi Daxili Məhsulun həcmi 63,4 milyard dollara çatmışdır. Bunun nəticəsidir ki, Cənubi Qafqaz regionunda yaradılan ümumi daxili məhsul həcminin 80 faizindən çoxu ölkəmizin payına düşür. İndi Azərbaycanda adambaşına düşən illik məhsul istehsalının həcmi 7 min dolları ötmüşdür.

Qeyri-neft sektorunda inkişafı təmin edən əsas amil dövlət başçısının – İlham Əliyevin müəyyən etdiyi sənayeləşmə siyasətidir. Bu siyasətin həyata keçirilməsi regionlarda yeni istehsal və emal müəssisələrinin yaradılması, minlərlə iş yerlərinin açılması ilə nəticələnmişdir. Qeyri-neft sektorunda son 8

ildə istifadəyə verilmiş obyektlərin 2 mininin məhz istehsal təyinatlı olması xüsusi qeyd edilməlidir.

Qeyri-neft sektoruna qoyulan investisiyalar neft sektorundan çoxdur. Belə ki, 15,5 milyard dollardan 9,3 milyard dolları qeyri-neft sektorunun payına düşür.

Bütün maliyyə mənbələri hesabına 21,7 milyard ABŞ dolları məbləğində investisiya qoyuluşu həyata keçirilmişdir. Onun 60 faizi daxili investisiyalar olmuşdur. Ümumi investisiyaların 15,7 milyard dolları qeyri-neft sektorunun inkişafına yönəldilmişdir. Xarici ticarət dövriyyəsi 30 faiz çoxalaraq 36 milyard dollar təşkil etmişdir. Strateji valyuta ehtiyatları il ərzində artaraq 40 milyard dolları ötmüşdür (14).

2011-ci ildə sosial infrastrukturun yaradılması sahəsində də böyük işlər görülmüşdür. İl ərzində 40-dan çox tibb müəssisəsi, 70-dən çox məktəb tikilmiş və təmir olunmuşdur. Respublikanın bölgələrində 5 olimpiya mərkəzi, mədəniyyət ocaqlarının tikilməsinə başlanılmışdır.

2011-ci il Azərbaycanda "Turizm ili" elan edilmişdir. Respublika coğrafi vəziyyətinə, gözəlliyinə, təbii imkanlarına görə Azərbaycan, o cümlədən Bakı elitar turizm mərkəzlərindən birinə çevrilə bilər və bu sahədə çox işlər görülür. Nazirlər Kabinetinin 2011-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr edilmiş iclasda Respublika Prezidenti İlham Əliyevin yekun nitqində də bu məsələ mühüm yer tutmuşdur (15).

Bakıda beşulduzlu altı otelin tikilməsi də onu göstərir ki, investorlar və dünya brendləri məhz Bakını elitar turizm mərkəzi kimi görürlər. Bu sahədə aparılan işlər göstərir ki, Azərbaycan elitar turizm mərkəzinə çevrilir. 2011-ci ildə Bakıda "Kempinski" və "Hilton" otelləri açılmışdır. İlin sonuna, 2012-ci ilin əvvəllərinə Bakıda "Marriot", "For season", Feermond", "Cümeyra" otellərinin açılması gözlənilir. Həmçinin regionlarda, o cümlədən, Şamaxıda, Qubada, Lənkəranda, Qəbələdə müasir səviyyəyə uyğun otellərin tikintisinə başlanılmışdır.

Azərbaycanda regionların inkişafına xüsusi diqqət yetirilir. 2011-ci ildə 80 mindən çox iş yeri açılmış, onun 50 mindən çoxu daimi iş yeridir. Qeyd edək ki, 2004-cü ilin fevralından 2011-ci ilin noyabrına qədər ölkəmizdə 900 mindən çox iş yeri açılmışdır ki, bu da işsizliyin aradan qaldırılması üçün demək olar ki, əsas amil olmuşdur (KTN.aqro.az).

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" uğurla yerinə yetirilmiş və hazırda "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" müvəffəqiyyətlə davam etdirilir. Bu proqramın icrası nəticəsində 2004-2011-ci illərdə 40 mindən çox yeni müəssisə yaradılmışdır. 2004-2011-ci illərdə respublikanın regionlarında 2 mindən artıq məktəb, 400-ə yaxın tibb müəssisəsi, 29 Olimpiya Idman Mərkəzi tikilib istifadəyə verilmişdir (www.nba.az).

Hazırda 2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı həyata keçirilir. 2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Prezident İlham Əliyev 9 sərəncam imzalamış, Prezidentin Ehtiyat Fondundan Bakının rayon və qəsəbələri üçün 28,5 milyon manat vəsait ayrılmışdır.

2011-ci ildə respublikanın xarici ticarət dövriyyəsi 1991-ci ilə nisbətən 7, o cümlədən, idxal 3,5, ixrac isə 10,1 dəfə artmışdır. Hazırda Azərbaycan 150 yaxın ölkə ilə ticarət sahəsində əməkdaşlıq edir.

Respublika iqtisadiyyatının əsas hissəsi olan neft-qaz sektorunda da 2011-ci ildə böyük işlər görülmüş və uğurla davam etdirilir. Təkcə 2010-cu ildə 51 milyon neft hasil edilmişdir ki, onun da böyük hissəsi ixrac olunmuşdur. 27 milyard kubmetr qaz hasil edilmişdir. Azərbaycanda qaz ehtiyatı 2,2 trilyon kubmetrdir. 2011-ci ildə neft və qaz hasilatının xeyli (3-5%) artması gözlənilir (www.cabmin.gov.az).

Hazırda Azərbaycanı beynəlxalq bazarlarla birləşdirən 7 neft və qaz kəməri fəaliyyət göstərir. Azərbaycan nefti və qazı bütün istiqamətlər üzrə ixrac edilir. Hazırda tranzit ölkələrlə, istehlakçılarla və potensial istehlakçılarla danışıqlar aparılır ki, gələcəkdə Azərbaycan zəngin neft-qaz potensialını maksimum dərəcədə işə sala bilsin.

Əhalinin təbii qazla təchizatının yaxşılaşdırılmasına yönəldilmiş 300 milyon manatdan çox vəsait hesabına yeni qaz kəmərləri çəkilmiş, 120 yaşayış məntəqəsinin qazlaşdırılması 90 min yeni abonenti qazla təmin etməyə imkan vermişdir.

Ölkədə ilk dəfə olaraq Sumqayıtda ən müasir texnologiyalar əsasında illik gücü 700 min ton olan azot gübrəsi zavodunun tikintisinə başlanılmışdır.

Yeni investisiya layihələri hazırlanır və dünyanın ən böyük qaz yataqlarından biri olan "Şahdəniz" qaz yatağının ikinci fazasının işlənilməsi ilə bağlı hazırlıq işləri aparılır. Təkcə "Şahdəniz" yatağının qaz ehtiyatları 1,2 trilyon kubmetr səviyyəsindədir. Alternativ və bərpa olunan enerjinin Azərbaycanda istehsalı gələcəkdə daha da böyük həcmlə ölçüləcəkdir. Respublikada mühüm diqqət yetirilən sahələrdən biri də nəqliyyat sektorudur. Bu sahəyə 2011-ci ildə də böyük sərmaye qoyulmuşdur. Bu sahə ölkə iqtisadiyyatının inkişafında çox böyük əhəmiyyət kəsb edir. 2011-ci ildə avtomobil yollarının tikintisi davam etdirilmiş, yeni təyyarələr alınmış, beynəlxalq ticarət limanının təməli qoyulmuş, gəmiqayırma zavodunun tikintisinə başlanılmışdır. Həmçinin dəniz nəqliyyatının inkişafı üçün tankerlər, quru yük gəmiləri alınır. Dəmir yolunun inkişafı üçün isə xüsusi proqram icra edilməkdədir. 2011-ci ildə Bakı-Tbilisi-Qars dəniz yolunun tikintisi davam etdirilir. Üç ölkənin Azərbaycan-Gürcüstan-Türkiyənin birgə səyləri ilə bu layihə uğurla icra olunmaqdadır.

2010-cu il Azərbaycanda "Ekologiya ili" elan edilmişdi. 2010-2011-ci illərdə məhz bu sahədə də böyük işlər görülmüşdür. Bu müddətdə 6 milyondan artıq ağac əkilmişdir. Həmçinin çaylar boyunca yerləşən kəndlərdə təmizləyici qurğuların istifadəyə verilməsi nəticəsində 300-350 min Azərbaycan vətəndaşı

Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təmin edilmişdir. Bu sahədə 2010-cu ildə istifadəyə verilmiş Oğuz-Qəbələ-Bakı su kəməri mühüm rol oynamışdır.

2011-ci ildə elektroenergetika sahəsində xeyli işlər görülmüşdür. 2006-2011-ci illərdə Azərbaycanda 1500 meqavatt gücündə yeni elektrik stansiyaları tikilib və bərpa edilmişdir. Hazırda respublikanın enerji gücü 6,5 min meqavatt səviyyəsindədir. “Şimal-2” elektrik stansiyasının tikintisinə başlanılmış və “Cənub” elektrik stansiyasının tikintisi davam etdirilir. Burada 780 meqavatt elektrik enerjisinin istehsalı gözlənilir.

Respublikada 2011-ci ildə alüminium, metallurgiya, kimya maşınqayırma, neft-kimya və digər sənaye sahələri də uğurla inkişaf etmişdir. Gədəbəydə yeni sənaye kompleksi işə salınmışdır. Yaxın vaxtlarda böyük metallurgiya kompleksinin işə düşəcəyi gözlənilir. 2011-ci ildə respublikada ixracyönlü sənaye potensialı artmaqdadır. Respublikada başlıca vəzifələrdən biri adambaşına düşən ümumi daxili məhsulu inkişaf etmiş ölkələrin səviyyəsinə çatdırmaqdır. Son 8 ildə 2003-2011-ci illərdə Azərbaycanda ümumi daxili məhsulu həcmi 3 dəfə artmışdır, yəni 300%. Lakin o da qeyd edilməlidir ki, 2011-ci ildə neft hasilatının bir qədər azalması ilə əlaqədar olaraq sənaye istehsalının səviyyəsi nisbətən aşağı düşmüşdür. UDM xüsusi çəkisi 1991-ci ildə 20%-dən 2010-cu ildə 52,5%-dək artmışdır. 2001-2011-ci illərdə qeyri-neft sektoru 2,8 dəfə artmışdır. 2006-2011-ci illərdə UDM-də qeyri-neft sektorunun payı 40,7%-dən 44,4%-ə yüksəlmişdir, neft sektorunun payı isə 53,8 %-dən 48,5%-ə qədər azalmışdır (9).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müstəqilliyimizin bərpasının 20-ci ildönümünə həsr olunmuş yığıncaqda qeyd etmişdir ki, 2003-2011-ci illərdə ölkə iqtisadiyyatı 300%, sənaye istehsalı 300% artmış, 950 min yeni iş yeri açılmış, yoxsulluq 5 dəfə-500% azalmışdır.

Respublikanın regionlarında genişmiqyaslı qazlaşdırma tədbirləri həyata keçirilir. 2013-cü ilə qədər qazlaşmanın səviyyəsini Azərbaycanda 95%-ə çatdırılması planlaşdırılmışdır. Abşeronda aşkar edilmiş böyük qaz ehtiyatı bu sahədə ən böyük uğur sayılmalıdır. Azərbaycanda 300-350 milyard kubmetr səviyyəsində yeni qaz ehtiyatları yaradılmışdır. “Ümid” və “Abşeron” qaz yataqları bu sahədə mühüm əhəmiyyətə malikdirlər. Beləliklə, Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetr səviyyəsindədir.

2010-2011-ci illərdə respublika iqtisadiyyatında kənd təsərrüfatının xüsusi çəkisi xeyli artmışdır. Ərzaq təhlükəsizliyinin təmin olunmasında bu sahənin rolu daha da yüksəlmişdir. Kənd təsərrüfatının inkişafı ilə bağlı sahələrin də inkişafına diqqət artırılmışdır. Respublikada gübrə, toxumlar, kənd təsərrüfatı texnikaları fermerlərə güzəştli şərtlərlə verilir (www.econom.gov.az).

Kənd təsərrüfatında ümumi məhsul istehsalı 5,8 faiz yüksəlmiş, meliorasiya və irriqasiya sistemlərində aparılan əsaslı tikinti işləri sayəsində 18,6 min hektar torpaq sahəsinin su təminatı və 19 min hektar sahənin meliorativ

vəziyyəti yaxşılaşdırılmış, 1000 hektardan artıq yeni suvarılan torpaq sahələri istifadəyə verilmişdir.

1996-2011-ci illərdə Respublikada sahibkarlığın inkişaf etdirilməsi sahəsində aparılan siyasət özünü doğrultmuşdur. Məhz 900 minə yaxın iş yerinin açılması, həm də sahibkarlığa göstərilən maddi yardımdan və siyasi dəstəkdən qaynaqlanır.

Dövlət başçısının ölkə tarixində ilk dəfə, qısa bir zamanda respublika əhalisinin keyfiyyətli içməli su və kanalizasiya sistemləri ilə təmin edilməsi barədə qarşıya qoyduğu məqsədlərə nail olmaq üçün mühüm işlər aparılır. 2011-ci ildə 9 bölgədə bu istiqamətdə işlərin icrası davam etdirilmiş, 29 rayonda tikintiyə başlanmışdır. Cari ildə daha 23 rayonda analoji layihələr həyata keçiriləcəkdir. Bununla yanaşı Kür-Araz çayları ətrafında yaşayan əhalinin standartlara uyğun içməli su ilə təmin edilməsi məqsədilə ötən il 32 modul tipli sutəmizləyici qurğu istifadəyə verilmişdir. Ümumilikdə isə 340 mindən artıq əhalisi olan 188 yaşayış məntəqəsi belə qurğularla təmin edilmişdir.

Son illərdə ölkənin maliyyə sistemində və bank sektorunda da əsaslı dəyişikliklər edildi, yeni iqtisadi münasibətlər formalaşdırıldı. Bunun nəticəsidir ki, 2003-2011-ci illərdə bank aktivləri 15, əhalinin əmanətləri 36, iqtisadiyyata kredit qoyuluşu 19,6 dəfə artmışdır. Ümumi daxili məhsulun həcmi 0,6%-dən 7,3%-ə yüksəlmişdir. Bu illərdə dövlət büdcəsinin gəlirləri 9,5 dəfə artmışdır. Hazırda ölkənin strateji valyuta ehtiyatları 40 milyard ABŞ dollarından artıqdır (www.azstat.org).

2011-ci ildə Azərbaycanın beynəlxalq iqtisadi təşkilatlarla münasibətləri inkişaf etdirilmişdir. Dünya Bankı ilə əlaqələrimiz daha da güclənmişdir. Azərbaycanın beynəlxalq iqtisadi münasibətlərində BMT-nin nəzdində olan Birləşmiş Millətlərin Sənaye İnkişafı Təşkilatı ilə münasibətlər də mühüm yer tutur. 2011-ci ilin xarici siyasət oriyentirlərinin ilk sırasında Azərbaycanın ərazi bütövlüyü əsasında Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması məsələsi, Xəzəryani bölgələrdə mehriban qonşuluq əlaqələrinin saxlanılması və yüksək etimad qurulması, fəal əməkdaşlıq və tərəfdaşlıq münasibətlərinin dərinləşdirilməsi, zəngin karbohidrogen ehtiyatlarının ixracı və nəqlində ən sabit və etibarlı ölkə qismində Azərbaycanın mövqeyinin möhkəmləndirilməsi, sivilizasiyalararası dialoqa töhfə məqsədilə ölkənin unikal çoxmədəniyyətli xüsusiyyətləri və geosiyasi vəziyyətindən səmərəli şəkildə istifadə olunması məsələləri yer alır (11).

Son illərdə hərbi quruculuq sahəsində də çox dəyərli və əhəmiyyətli işlər görülmüşdür. Ölkə Prezidenti Silahlı Qüvvələrin 93-cü ildönümü münasibətilə Bakıda keçirilən təntənəli hərbi paradda söylədiyi nitqində bildirmişdir ki, "Azərbaycanda nizami ordu vardır. Ordumuzda peşəkarlıq, döyüş qabiliyyəti artır, Silahlı Qüvvələrdə ruh yüksəkliyi vardır". Ordunun maddi-texniki bazasının möhkəmləndirilməsində irəliləyişlər, uğurlar böyükdür. Respublikanın hərbi potensialı yüksək dərəcədə artmışdır. Azərbaycan ordusu müasir tipli döyüş təyyarələrinə, döyüş və hərbi nəqliyyat helikopterlərinə malikdir.

Respublika ordusunun hərbi imkanlarını, potensialını gücləndirmək işində hərbi büdcə həlledici rola malikdir. 2003-cü ildə hərbi büdcəmiz 160 milyon dollar idisə, 2010-cu ildə bu rəqəm 2 milyard 150 milyon dollar, 2011-ci ildə isə 3 milyard 300 milyon dollar təşkil etmişdir. Bu gün Azərbaycanda hərbi xərclərə sərf olunan vəsait Erməninin bütün büdcəsindən 50% artıqdır (www.nba.az).

Ölkəmiz üçün narahatlıq doğuran problem – Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli məsələsidir. Lakin bu münaqişənin həllində irəliləyişə nail ola bilməmişik. Azərbaycan dövləti heç vaxt imkan verməz ki, Azərbaycanın tarixi torpaqlarında 2-ci erməni dövləti yaradılsın. 2011-ci ildə bu məsələdə Azərbaycanın mövqeyi daha da möhkəmlənmişdir. Avropa Parlamenti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair çox ədalətli qətnamə qəbul etmişdir. 2011-ci ildə də bu məsələ digər beynəlxalq təşkilatlarda müzakirə olunmuş və Azərbaycanın mövqeyi müdafiə edilmişdir. Ən əsası odur ki, həmişə olduğu kimi hazırda da Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməkdə davam edir. 2011-ci ildə münaqişənin həlli yollarının axtarışı davam etdirilməklə yanaşı Azərbaycanda ordu quruculuğu da genişləndirilmişdir. 2011-ci ildə ordu quruculuğu xərcləri 3 milyard dollardan çox nəzərdə tutulmuşdur (14).

ABŞ-dakı Azərbaycan-Türkiyə icmaları Senat və Nümayəndələr Palatasına minlərlə məktub göndərərək Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağdakı seperatçılara yardımı dayandırmağı tələb etmişlər.

Azərbaycan öz regionunun güclü dövlətlərindən birinə çevrilmişdir. Artıq hər kəs inanır ki, regionda Azərbaycanın iştirakı olmadan istər siyasi, istərsə də iqtisadi sahələrdə əməkdaşlıq mümkün deyil. Burada yalnız Azərbaycanın zəngin təbii ehtiyatları və ya əlverişli coğrafi-siyasi vəziyyəti deyil, həmçinin Azərbaycanın balanslaşdırılmış xarici siyasəti, ölkə daxilində gedən proseslər, ictimai-siyasi sabitlik, dünyaya inteqrasiya, sabit inkişaf və digər amillər böyük rol oynayır.

2011-ci ildə Azərbaycanın xarici siyasəti istər ikitərəfli əsaslarda, istərsə də çoxtərəfli müstəvidə uğurla həyata keçirilib. Hazırda Azərbaycanın 65 ölkədə diplomatik nümayəndəlikləri fəaliyyət göstərir.

Təcrübə göstərmişdir ki, Azərbaycan Respublikasının xarici siyasətində çoxtərəfli əməkdaşlıq vacib amildir. Azərbaycan Respublikası BMT və onun ixtisaslaşmış təşkilatları, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq və regional təşkilatların üzvü olmaqla yanaşı Avropa İttifaqı və NATO yanında nümayəndəliklərə malikdir. 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası Dağlıq Qarabağ münaqişəsinə dair 822, 853, 874 və 884 saylı qəbul etdiyi qərarlar 2011-ci ildə də yerinə yetirilmədi (13).

2011-ci ildə də Avropa Şurası ilə Azərbaycan Respublikası arasında münasibətlər daha da inkişaf etmişdir. 2011-ci ildə Respublika Prezidentinin

beynəlxalq təşkilatlardakı məqsədyönlü, qətiyyətli və cəsarətli çıxışları Azərbaycanın dünyadakı nüfuzunun daha da artmasına güclü təsir göstərmişdir.

2011-ci il Azərbaycanın xarici siyasətində Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli ilə bağlı aparılan məqsədyönlü tədbirlərdə mühüm yer tutmuşdur. 2011-ci ildə Respublikamız humanitar və digər sahələrdə fəal siyasət yeritmişdir. Bu istiqamətdə beynəlxalq təşkilatlarla, NATO və Avropa İttifaqı ilə əməkdaşlıq daha da inkiaşf etmişdir. 2011-ci ildə də Azərbaycan haqqında həqiqətlərin dünya birliyinə çatdırılmasında Azərbaycan diplomatiyasının fəaliyyəti daha da genişlənmişdir. Qeyd olunan ildə Azərbaycanın xarici siyasətinin həyata keçirilməsində mühüm rol oynayan onun yerləşdiyi coğrafi mövqe ilə əlaqədardır. Belə ki, yeni yaranmaqda olan nəqliyyat və enerji dəhlizləri üzərində və böyük ticarət yollarının kəsişməsində yerləşməsi Azərbaycana enerji və infrastruktur mərkəzinə çevrilmək üçün əhəmiyyətli imkanlar yaratmışdır.

2011-ci ildə Respublikanın xarici siyasətinin prioritet istiqamətlərindən biri də qonşu dövlətlərlə sıx əməkdaşlıq və mehriban qonşuluq münasibətlərini uğurla davam etdirmək olmuşdur. Bu istiqamətdə qonşu ölkələrlə iqtisadi, siyasi, mədəni, elmi və s. sahələrdə əməkdaşlıq 2011-ci ildə də genişləndirilmişdir.

2011-ci ildə Bakıda keçirilən Mədəniyyətlərarası Dialoq Forumu bütün dünyada böyük rəğbətlə qarşılanıb. Həmçinin 2011-ci ilin oktyabrında Bakıda keçirilmiş “XXI əsr: Ümidlər və Çağırışlar” adı ilə Beynəlxalq Humanitar Form dünya ictimaiyyətinə bir daha sübut etdi ki, Azərbaycan beynəlxalq aləmdə sülhün və əmin-əmanlığın möhkəmləndirilməsinə ən çox töhfə verən ölkələrdən biridir. Bu Heydər Əliyev xarici siyasətini böyük uğurla davam etdirən Respublika Prezidenti İlham Əliyevin uğurlu fəaliyyətinin nəticəsidir (8).

Bu gün Avstraliya istisna olmaqla, dünyanin bütün qitələrində diplomatik nümayəndəliklərimiz fəaliyyət göstərir. Bir sıra ölkələrlə, o cümlədən Rusiya ilə münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Azərbaycan-Türkiyə münasibətləri qardaşlıq səviyyəsində inkişaf etməkdədir.

Azərbaycan İranla mütərəqqi və gələcəyə istiqamətlənmiş dialoq aparır, Xəzər Dənizi ilə Avropa regionu arasında Körpü yaratmaq məqsədilə Orta Asiya dövlətləri ilə münasibətlər genişləndirilir. 2010-2011-ci illərdə Azərbaycan ABŞ-la ikitərəfli və çoxtərəfli çərçivədə əməkdaşlıq edilmişdir.

Coğrafi baxımdan Qərb ilə Şərqin kəsişməsində yerləşən Azərbaycan Avropa ölkələrindən mal və xidmətləri böyüyən Asiya bazarlarına və əksinə daşınması üçün təbii keçid imkanını təmin edir. Bu baxımdan da Orta Şərq və Asiya ölkələri ilə əlaqələrin inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətində mühüm yer tutur.

Həmçinin Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasına əsasən Azərbaycanın xarici siyasət strategiyasının başlıca istiqaməti Avro-Atlantik inteqrasiyasıdır. 2011-ci ildə də Azərbaycanın Avropa İttifaqının Şərqi Tərəfdaşlıq proqramında aktiv iştirak etmişdir. NATO ilə əməkdaşlıq, ABŞ, İsrail, Avropa İttifaqı və Şərqi Avropa ölkələri ilə əməkdaşlığı, enerji

ehtiyatlarının istismarı üzrə daha çox qərb ölkələri ilə əməkdaşlığa üstünlük verilməsi, MDB məkanında çoxtərəfli yox, daha çox fərdi qaydada ikitərəfli əməkdaşlığa üstünlük verilməsi Avro-Atlantik inteqrasiyasının Azərbaycan üçün nəinki sənədlərdə, həmçinin gündəlik fəaliyyətdə də vacib olması açıq görünür. 2011-ci ildə Moskva şəhərində keçirilən Ümumrusiya-Azərbaycan konqresinin birinci qurultayı bir daha göstərdi ki, Azərbaycan-Rusiya münasibətlərinin dərin tarixi kökləri vardır. Son 20 ildə bu münasibətlər öz inkişafında yeni bir mərhələyə daxil olmuşdur. Bunu hər iki ölkə rəhbərlərinin bir-birlərinə səfərləri də sübut edir (6).

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının I Zirvə Toplanışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev geniş məruzə ilə çıxış edərək bildirmişdir ki, "Bir müddət türkdilli dövlət başçılarının zirvə görüşləri keçirilməmişdir. Ancaq son üç il ərzində görüşlər mütəmadi keçirilir. 2009-cu ildə Naxçıvanda, 2010-cu ildə İstanbulda və 2011-ci ildə isə Almatada bu görüşlər keçirilir. Biz istəyirik ki, bütün türkdilli dövlətlər arasında həm ikitərəfli, həm çoxtərəfli formatda əlaqələr daha da yüksək səviyyəyə qalxsın".

Qeyd etməliyik ki, Azərbaycanın qarşısında duran əsas problem Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemidir. Münaqişə 2011-ci ildə də həll olunmamış qalır. Bu bütün bölgə üçün ən böyük təhlükə mənbəyi kimi qalmaqdadır. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü yenə də pozulur. Həmçinin BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsindən irəli gələn məsələlər həll olunmamış yenə də qalmaqdadır. ATƏT-in qərarları, İslam Əməkdaşlığı Təşkilatının çoxsaylı qətnamələri, Avropa Şurası, Avropa Parlamenti və digər təşkilatların qərarları münaqişənin həlli üçün çox güclü hüquqi zəmin yaratsa da, çox təəssüf ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi və danışıqlara məsuliyyətsiz yanaşma, Minsk qrupunun həmsədrlərinin qeyri-obyektiv fəaliyyəti imkan vermir ki, bu problem həll edilsin. Almatı toplantısında türk dünyasının daha sıx birləşməsinin olduqca vacib olduğu qeyd edilmişdir. Toplantıda Azərbaycanın türkdilli dövlətlərlə, xüsusilə Türkiyə ilə əməkdaşlığın çox uğurla davam etdirildiyi xüsusilə qeyd edilmişdir. Toplantıda çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd etmişdir ki, "Biz nəqliyyat sahəsində əməkdaşlığa böyük ümid bəsləyirik, müvafiq olaraq Xəzər dənizi və Qara dəniz regionlarında həyata keçirdiyimiz nəqliyyat, infrastruktur layihələri ölkəmizi təkcə nəqliyyat yolları ilə birləşdirməyəcək, həm də Xəzər-Qara dəniz hövzəsində, gələcəkdə isə Xəzər dənizi-Qara dəniz-Baltik dənizi regional əməkdaşlığı üçün yaxşı zəmin yaradacaqdır. Bunun üçün bütün əsaslar, yetərincə siyasi iradə vardır. Energetika, nəqliyyat sahələrində bu təşəbbüslər ölkələrimizi yaxınlaşdırır. Biz neft sahəsində əməkdaşlıqdan qaz sahəsində əməkdaşlığa keçməyi planlaşdırırıq. Cari ilin əvvəlində müvafiq sənəd imzalanmışdır, o, ikitərəfli əməkdaşlığın əvvəli illər heç vaxt olmayan prinsipcə yeni elementidir. Bu gün Azərbaycanın öz qaz potensialını genişləndirdiyi və iri qaz istehsalçısı və ixracçısına çevrildiyi vaxtda bu sahədə əməkdaşlıq ölkələrimiz arasında xüsusi əhəmiyyət,

mahiyyət kəsb edir. Burada qarşılıqlı səylər və siyasi iradə bu prosesləri irəli aparır, əlbəttə, həlledici rol oynayır".

Bütünlükdə qeyd etmək lazımdır ki, son 10 ildə Azərbaycanda gələcək davamlı iqtisadi inkişafı təmin edən, xarici təsirlərə dayanıqlı olan iqtisadi sistem formalaşmış, respublikanın ərzaq və enerji təhlükəsizliyi təmin olunmuşdur. Görülən əhəmiyyətli tədbirlər, yeridilən müdrik, uzaqgörən daxili və xarici siyasət nəticəsində Azərbaycan artıq enerji daşıyıcıları idxalçısından onun ixracatçısına enerji təhlükəsizliyinin təmin edilməsi baxımından etibarlı tərəfdaşdır.

2011-ci ilin yekunları göstərir ki, Dağlıq Qarabağ problemi istisna olmaqla həm iqtisadi, sosial-mədəni məsələlərin həllində, həm də ölkənin xarici siyasət sahəsində problemimiz yoxdur. 2011-ci ildə həm beynəlxalq, həm də daxili siyasət müstəvisində uğurlu işlər görülmüşdür. Qonşu ölkələrlə, türkdilli ölkələrlə ikitərəfli və çoxtərəfli münasibətlər inkişaf etdirilmişdir. Beynəlxalq müstəvidə, həm də bölgədə Azərbaycanın mövqeyi daha da möhkəmlənmişdir. Azərbaycan artıq çox ciddi regional amilə çevrilmişdir və onun bölgədə gedən ictimai-siyasi proseslərə təsiri artmaqda davam edir (15).

Hazırda Azərbaycanda yeni inkişaf strategiyası hazırlanmaqdadır. Azərbaycan beynəlxalq rəqabətə davamlığı təmin etmək üçün innovativ yollara qədəm qoyur. Respublika Prezidenti İlham Əliyevin imzaladığı "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyası bu baxımdan olduqca əhəmiyyətlidir. 2011-ci ildə daxili və xarici siyasət sahəsində görülən işlərin nəticəsi, əldə edilən uğurlar göstərir ki, Azərbaycan iqtisadi-sosial və beynəlxalq inkişaf strategiyasının mahiyyətcə yeni mərhələsinə daxil olur. Bu isə əlbəttə son 20 ildə əldə edilən nailiyyətlərin, görülən irimiqyaslı tədbirlərin, islahatların nəticəsi və məntiqi davamıdır.

## ƏDƏBİYYAT


1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr, 2005, 528 s.
2. Azərbaycan Respublikası 1991-2001. Bakı: Azərnəşr, 2001, 360 s.
3. Əliyev H.Ə. Müstəqillik yolu. Bakı: Azərnəşr, 1997, 546 s.
4. Əliyev H.Ə. "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramının təqdimatına həsr olunmuş ümummilli konfransda nitq" – "Azərbaycan" qəzeti. Bakı: Elm, 2002, 26 oktyabr.
5. Heydər Əliyev neft strategiyası: Azərbaycanın müstəqilliyi və rifahı naminə. I hissə. Bakı: Təhsil, 2001, 416 s.
6. Mehdiyev R. XXI əsrdə dövlətçilik. Bakı: Azərnəşr, 2003, 354 s.
7. Зияд Самедзаде. Этапы большого пути. Баку: Азернешр, 2004, 936 стр.
8. Nadirov A. Müstəqil Azərbaycanın iqtisadiyyatının inkişaf məsələləri. Bakı: Azərnəşr, 2000, 354 s.
9. Zeynalov İ.X. Azərbaycanın sosial-iqtisadi inkişafı XX əsrin II yarısı. Bakı: Azərnəşr, 2004, 326 s.
10. Zeynalov İ.X. Müstəqil Azərbaycanın iqtisadi inkişafında yol-nəqliyyat infrastrukturunun rolu. Bakı Universitetinin xəbərləri (Humanitar elmlər seriyası), 2009, №3, 70-76 s.
11. Azərbaycan tarixi, VII c. Bakı: Elm, 2003, 676 s.
12. Azərbaycan tarixi (XIX-XXI əsrin əvvəlləri). Bakı: Bakı Universiteti, 2010, 544 s.

13. “Respublika” qəz., 17 mart 2012.
14. “Azərbaycan” qəz., 17 mart 2012.
15. “Xalq” qəz., 17 mart, 2012.
16. www.maliyye.gov.az
17. www.agro.gov.az
18. www.nba.az
19. www.president.az
20. www.meclis.gov.az
21. www.cabmin.gov.az
22. www.economy.gov.az
23. www.azstat.gov.org

## РАЗВИТИЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (2003-2011 гг.)

**И.Х.ЗЕЙНАЛОВ**

## РЕЗЮМЕ

Научная статья посвящена достигнутым успехам и изменений в социально-экономической и культурно-политической жизни Азербайджанской Республики под руководством Ильхама Алиева. В статье рассматривается сегодняшнее положение выполнения государственных программ по вопросам внутренней и внешней политики:

- сегодняшнее положение выполнения государственных программ по вопросам внутренней и внешней политики;

- всестороннее освещение участия Азербайджана в транснациональных проектов, проведенных в регионах;

- параллельное развитие нефтяного сектора с не нефтяными отраслями промышленности и ее влияние на социально-экономическое и культурное развитие страны;

- повышения социального положения и уровня жизни всех слоев населения республики, доведения до минимального уровня нищеты и т.д.

В последение годы, несмотря на мировой финансово-экономический кризис, международные институты рейтинга высоко оценивают темпы социально-экономического развития Азербайджана. Они объясняют это проведением правильной политики руководства республики в финансовой и других сферах экономики

**Ключевые слова:** цивилизация, социально-экономическое, модель, финансово-экономический кризис, сбалансированное, не нефтяной сектор, реформы, социальное положение, микроэкономика, девальвация, энергетический сектор, инвестиции, экология, экспорт, Евросоюз, не конструктивный

## DEVELOPMENT OF THE AZERBAIJAN REPUBLIC (2003-2011)

**I.Kh.ZEYNALOV**

## SUMMARY

The article deals with the achievements and changes in social economical, and cultural-political life of the Azerbaijan Republic under Ilham Aliyev’s leadership. The article considers the present situation of state programs dealing with domestic and foreign policy:

- Present state of fulfilling state programs on domestic and foreing policy;

- comprehensive illustration of Azerbaijan's participation of transnational projects carried out in the region
- Parallel development of the oil sector with non-oil sectors and its influence to the social-economical and cultural development of the country;
- Improvement of social condition and life level of the population, relief of poverty etc.

Recent years, in spite of the world financial-economic crisis, international rating institutes highly assess the social-economic development of Azerbaijan and evaluate this by the correct policy of the government in financial and other spheres of economy.

**Key words:** civilization, social-economy, model, financial-economic crisis, pre-balanced, nonpetroleum industry, reform, social condition, ecology, export, the European Union, nonconstructive